# Moskvada Azərbaycan Elm və Mədəniyyəti Günləri keçirilir

**Azərbaycan İlahiyyat İnstitutunun (AİI) rektoru Aqil Şirinov Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar Moskva İslam İnstitutunda Azərbaycan alimlərinin, tanınmış mədəniyyət və elm xadimlərinin qatıldıqları Azərbaycan Elm və Mədəniyyəti Günlərində iştirak etmək üçün Rusiya Federasiyasının paytaxtı Moskva şəhərində səfərdədir.**



AİI-nin rektoru səfər çərçivəsində bir sıra görüşlər keçirib.

A.Şirinov öncə Rusiya Federasiyası Müsəlmanları Ruhani İdarəsi sədrinin birinci müavini, Moskva İslam İnstitutunun rektoru, professor Damir Muhetdinovla görüşüb. Görüşdə Azərbaycan İlahiyyat İnstitutu ilə Moskva İslam İnstitutu arasında imzalanmış əməkdaşlıq müqaviləsinə əsasən baş tutacaq bir sıra tədbirlər barədə fikir mübadiləsi aparılıb.

İlahiyyat İnstitutunun rektoru daha sonra Rusiya Federasiyası Müsəlmanları Ruhani İdarəsinin sədri Müfti Şeyx Ravil Qaynutdinlə görüşüb. Dini lider iki ölkə arasında elmi əlaqələrin və dost münasibətlərin inkişafından məmnunluğunu ifadə edib, eləcə də Azərbaycanın Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyi münasibətilə təbriklərini bildirib. Ümummilli Liderin yubileyi ilə əlaqədar Moskva İslam İnstitutunda Azərbaycan alimlərinin, tanınmış mədəniyyət və elm xadimlərinin iştirak etdikləri Azərbaycan Elm və Mədəniyyəti Günlərinin keçiriləcəyini diqqətə çatdırıb. O, AİI rektoru Aqil Şirinovu da burada görməkdən məmnun olduğunu bildirib. Rektor Aqil Şirinov Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illiyi münasibətilə keçirilən tədbirə görə minnətdarlığını bildirib.

Görüşdə tərəflər arasında təhsil və elm sahələrində qarşılıqlı münasibət, uzunmüddətli əməkdaşlıq, tədris prosesində əldə olunmuş nailiyyətlərin tətbiqi, mədəni əlaqələrin qurulması və möhkəmləndirilməsi haqqında ətraflı fikir mübadiləsi aparılıb.

AİI rektoru Aqil Şirinov səfər çərçivəsində Moskva Cümə Məscidini ziyarət edib. Rusiya Federasiyası Müsəlmanları Ruhani İdarəsi sədrinin müavini Rafiq Fattahetdinovun 50 illik yubileyi ilə əlaqədar Rusiya Federasiyası Müsəlmanları Ruhani İdarəsində təşkil olunan ziyafətdə iştirak edib.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2023.- 19 may.- S.5.





